**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# TURİZM SAHƏSİNDƏ KADR HAZIRLIĞININ TƏKMİLLƏŞDİRİLMƏSİ YOLLARI

İxtisas: 5312.01 - Sahə iqtisadiyyatı

Elm sahəsi: İqtisad elmləri

İddiaçı: **İlahə Şahin qızı Əliyeva**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2024**

Dissertasiya işi Azərbaycan Turizm və Menecment Universitetində yerinə yetirilmişdir.

Elmi rəhbər: iqtisad elmləri doktoru, professor, Əməkdar elm xadimi **Əli Qəmbərəli oğlu Əlirzayev**

Rəsmi opponentlər: iqtisad elmləri doktoru, dosent
**Anar Əli oğlu Əzizov**

iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent
**Azər Maarif oğlu Pənahov**

iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent
**Elmira Məhəmmədovna Qocayeva**

Azərbaycan Respublikası Prezidenti Yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Kooperasiya Universiteti nəzdində fəaliyyət göstərən ED 2.46 Azərbaycan Kooperasiya Universiteti və Bakı Biznes Universitetinin birgə Dissertasiya şurası

Birgə Dissertasiya şurasının sədri: AMEA-nın həqiqi üzvü, iqtisad elmləri doktoru, professor
________________ **Ziyad Əliabbas oğlu Səmədzadə**

Dissertasiya şurasının elmi katibi: iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent
________________ **Samirə Yaşar qızı Məmmədova**

Elmi seminarın sədri: Əməkdar kənd təsərrüfatı işçisi, iqtisad elmləri doktoru, professor
________________ **İslam Hacı oğlu İbrahimov**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Ötən yüzilliyin 80-ci illərində qlobal inkişafın yeni bir meyli özünü açıq şəkildə büruzə verməyə başladı. Həmin meyil nümayiş etdirirdi ki, istənilən ölkənin beynəlxalq əmək bölgüsündəki yeri və rolu emaledici sahələrin və mütərəqqi texnologiyaların beynəlxalq bazarlarda rəqabətqabiliyyətliliyi, hər şeydən əvvəl, bir-birini qarşılıqlı surətdə müəyyənləşdirən iki amildən asılıdır: mütəxəssislərin hazırlığı səviyyəsindən; alim və mütəxəssislərin malik olduqları intellektual potensialın reallaşdırılması məqsədilə ölkənin (yaxud sosial-iqtisadi sistemin) yaratmış olduğu şəraitdən. İntelektual potensiala tələbat onun səfərbər edilməsi və aktuallaşdırılması baxımından cəmiyyətin inkişafı üçün son dərəcə mühüm və əhəmiyyətli bir stimuldur.

Turizm işçilərinin ixtisaslarının artırılması hər hansı bir ölkədə turizm sənayesinin rəqabət qabiliyyətini təmin etmək üçün zəruri şərtdir. Bir ölkədə turizm sahəsindən əldə olunan gəlirlərin həcmi ilə həmin ölkənin turizm xidmətlərinə olan tələbin həcmi arasında düz mütənasib əlaqə mövcuddur. Turizm xidmətlərinə olan tələbin həcminə təsir edən əsas amil hər bir ölkənin mövcud turizm potensialıdır. Bu əsasdan turizm potensialını kadrların yüksək ixtisas səviyyəsi ilə zənginləşdirərək onu keyfiyyətli turizm xidməti halına çevirmək lazımdır. Məhz bu nöqtədə turizm sahəsində ixtisaslı kadrların artan önəmi diqqəti çəkir. Əks təqdirdə beynəlxalq turizm bazarından gələn gəlirlər heç bir zaman arzuolunan səviyyəyə çatmayacaqdır. Belə ki, ixtisaslı turizm sahəsi kadrları tərəfindən keyfiyyətli şəkildə təqdim edilməyən turizm məhsulları istehlakçıların rəğbətini qazanmaya bilər və dolayı olaraq bu məhsulun rəqabətqabiliyyətliliyi aşağı düşə bilər.

Sürətlə inkişaf edən Azərbaycan Respublikasında neft strategiyasının uğurları özünü artıq qeyri-neft sektorunda əks etdirir. Turizm sahəsi qeyri-neft sektorunun ən perspektivli istiqamətlərindən biridir. Azərbaycanda turizm sahəsindən əldə olunan gəlirlər dövlət büdcəsinin əhəmiyyətli hissəsini təmin etməyə qabildir. Bu baxımdan turizmin inkişaf etdirilməsi və onun iqtisadiyyatın ən dayanıqlı, rəqabətə davamlı sahəsinə çevirilməsini zəruri edir. Azərbaycan

turizm potensialı olduqca yüksək olan ölkələrdəndir. Ancaq hazırda mövcud olan peşəkar kadr çatışmazlığı problemi ölkəmizin böyük perspektivlərə malik turizm sahəsinin inkişafına mane olan səbəblərdəndir. Məhz bu səbəbdən, ölkə Prezidentinin 6 dekabr 2016-cı il tarixli fərmanı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi"ndə dörd hədəfdən biri "turizm sahəsində təhsil proqramlarına investisiya qoyuluşunu həyata keçirmək və turistlərin məmnunluğunu artırmaq üçün standartlaşdırma və sertifikatlaşdırma sistemini təkmilləşdirmədirilməsi"nə həsr olunmuşdur. Həmçinin həmin fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikasında peşə təhsili və təliminin inkişafına dair Strateji Yol Xəritəsi"ndə əmək bazarının tələblərinə uyğun təhsil proqramları əsasında ixtisaslı kadrlar hazırlayan peşə təhsili sisteminin inkişaf etdirilməsi əsas hədəf kimi götürülmüşdür.

Yüksək sürətlə genişlənən turizm sahəsi artıq daha ixtisaslı və peşəkar mütəxəsislər tələb edir. Bu baxımdan, beynəlxalq standartlara uyğun turizm təhsilinə malik kadrların hazırlığının həyata keçirilməsi önəmli məsələ kimi qarşıda durur. Dünyada təqribən 40 ilə yaxındır ki, turizm və qonaqpərvərlik sektoru üçün ali məktəblərdə ixtisaslı kadrlar hazırlanır. Turizm təhsili ölkəmizin ali və orta ixtisas təhsil müəssiələrində əvvəllər də qismən mövcud olsa da, heç şübhəsiz ki, bu işə ciddi yanaşılmağa 2006-cı ildə ölkə Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə yaradılan Azərbaycan Turizm İnstitutunun təşkili ilə başlanılmışdır. Hazırda Azərbaycan Respublikasında turizm sahəsi üzrə kadr hazırlığı istiqamətində əhəmiyyətli addımlar atılmaqdadır. Bununla belə, turizm sahəsinin səmərəli və peşəkar idarə edilməsi, ixtisaslı kadr hazırlığı, turizm sahəsində keyfiyyətli təhsil, hazırda bu sahədə çalışan bir sıra qeyri-peşəkar kadrların mövcud olması ilə bağlı problemlər hələ də qalmaqdadır. Eyni zamanda, turizm sahəsi üzrə kadr hazırlığına dair yerli və xarici təcrübənin daim təhlili, inkişaf etmiş ölkələrin turizm sahəsi üzrə təhsil, peşə-təlim, tədris proqramlarının araşdırılması, bazar iqtisadiyyatı şəraitində bu sahə üzrə həyata keçirilən kadr hazırlığı siyasətinin səmərəliliyinin qiymətləndirilməsi, turizm müəssisələrinin kadr potensialının formalaşdırılması və inkişafı kimi məsələlərin kompleks həlli

zəruridir. Azərbaycan Respublikası Prezidentinin 02 fevral 2021-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də nəzərdə tutulmuş 5 milli prioritetdən birində işğaldan azad olunmuş ərazilərə böyük qayıdış nəzərdə tutulmuşdur. İşğaldan azad olunmuş ərazilərin malik olduğu iqtisadi imkanlar arasında turizm xüsusi əhəmiyyət kəsb edir. Ona görə də, turizm sahəsində kadr hazırlığının ayrı-ayrı mərhələlərinin kompleks təhlili əsasında beynəlxalq və regional səviyyədə bu sahə üzrə kadr hazırlığı imkanlarının müəyyənləşdirilməsi və perspektiv inkişaf trayektoriyasının kadr potensialı ilə səmərəli əlaqəsinin təmin olunması məsələlərinin araşdırılması mühüm nəzəri və praktiki əhəmiyyət kəsb edir.

Dünya və ölkə daxili turizm bazarında baş verən dəyişikliklər turizm sahəsinin iqtisadi rolu, onun kadr təminatı, kadr potensialının formalaşdırılması və inkişafına təsir edən daxili və xarici amillər arasında qarşılıqlı əlaqəsi məsələlərinin dərindən tədqiqini zəruri edir. Fikrimizcə, turizm sahəsinin inkişafında kadr hazırlığı sisteminin təkmilləşdirilməsi məsələlərinin fundamental-nəzəri və praktiki aspektlərinin təhlili onun qlobal səviyyədə iqtisadi əhəmiyyətinin artmasını şərtləndirəcəkdir. İşğaldan azad olunmuş ərazilərdə, eləcə də müasir reallıqlar şəraitində Azərbaycan Respublikasında turizm sahəsinin inkişaf etdirilməsinin obyektiv zərurəti bu sahədə kadr hazırlığı istiqamətində ciddi islahatların aparılması, onun resurs potensialının və idarə olunması mexanizmlərinin təkmilləşdirilməsi maliyyə və kadr təminatı məsələlərinə mövcud yanaşmalarda köklü dəyişikliklərin həyata keçirilməsini tələb edir. Tədqiqatımızın mövzusunun aktuallığını məhz bu amillər təşkil etmişdir.

Mövzunun işlənmə dərəcəsinə gəldikdə isə onu qeyd edə bilərik ki, turizm sahəsinin inkişafı eyni zamanda kadr təminatı və yüksək ixtisaslı kadrların hazırlanması prosesinin idarə olunmasında müşahidə edilən problemlər Azərbaycan alimlərindən Z.Ə.Səmədzadə, Ə.Q.Əlirzayev, F.P.Rəhmanov, H.B.Soltanova, B.Ə.Bilalov, S.T.Yeganlı, C.A.Məmmədov, K.Q.Ağamalıyev, U.K.Ələkbərov, M.Ə.Əliyev, H.İ.Həmidov, Ə.S.Fərəcov, Ş.M.Muradov, Ə.T.Nağıyev, E.A.Quliyev, A.N.Həsənov, V.S.Dərgahov, İ.H.İbrahimov, N.C.Qafarov, R.M.Kasumov, A.Ə.Əzizov və başqalarının elmi əsərlərinin tədqiqat

obyekti olmuşdur.

Bu mövzu ilə bağlı A.Ladkin, M.Riley, V.Amoah, T.Baum, E.Salas, P.Nischithae, Thanika D.Juwaheer, S.H.Quartey, S.Wagner, P.Lyons, J.L.Mullins, Y.Q.Odeqova Q.V.Şekin, A.Kozak, H.Yazıt kimi xarici tədqiqatçıların elmi əsərlərini qeyd edə bilərik.

Bu sahədə aparılmış elmi tədqiqatların əhəmiyyətini azaltmadan qeyd etmək lazımdır ki, müasir dövrdə ölkəmizdə turizm sahəsinin davamlı inkişaf mərhələsinə daxil olması şəraitində kadr hazırlığı və mövcud kadrların təkmilləşdirilməsi ilə bağlı problemlərin sistemli şəkildə araşdırılmasını zəruri etmişdir. Qeyd olunanlar problemin aktuallığını göstərərək, tədqiqat mövzusunun seçilməsini, onun məqsəd və vəzifələrinin müəyyənləşdirilməsini də şərtləndirmişdir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti Azərbaycan Respublikasında fəaliyyət göstərən turizm təsərrüfatlarının toplusudur. Tədqiqatın predmetini isə turizm sahəsində kadrların hazırlığı zamanı iqtisadi subyektlərdə və onların arasında meydana çıxan münasibətlər, qanunauyğunluqlar, tətbiq olunan üsul və vasitələr təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi turizm sahəsində kadr hazırlığı problemlərinin nəzəri əsaslarının tədqiqi, müasir vəziyyətin təhlili və qiymətləndirilməsi və bunların əsasında Azərbaycanda turizm üzrə kadr hazırlığı sisteminin təkmilləşdirməsi istiqamətlərini müəyyənləşdirməkdən ibarətdir. Bu məqsədə nail olmaq üçün aşağıdakı vəzifələr qarşıya qoyulmuş və yerinə yetirilmişdir:

- turizm sahəsində kadr potensialının formalaşdırılması və inkişafının nəzəri-metodoloji əsaslarının tədqiqi;
- turizm sahəsi üçün peşəkar kadr hazırlığının xüsusiyyətlərinin araşdırılması;
- turizm üzrə kadrların hazırlığı sahəsində beynəlxalq təcrübənin öyrənilməsi;
- Azərbaycanda turizm sahəsinin inkişaf dinamikasının təhlili;
- ölkədə turizm sektorunun kadr resurslarının müasir vəziyyətinin qiymətləndirilməsi;
- turizm sahəsi üzrə kadr potensialının ekonometrik təhlilinin aparılması;
- milli iqtisadiyyatın turizm sahəsində kadr potensialının inkişaf perspektivlərinin müəyyən edilməsi;

– Azərbaycanda turizm sahəsində kadr hazırlığında mütəxəssisin təkmilləşdirilməsi istiqamətlərinin müəyyən edilməsi;
– ölkədə turizm üzrə kadr hazılığının təkmilləşdirilməsi və turizm mütəxəssislərinin ixtisas səviyyələrinin yüksəldilməsinə dair elmi və praktiki cəhətdən əsaslandırılmış təklif və tövsiyələrin verilməsi.

**Tədqiqat metodları.** Dissertasiya işinin metodoloji əsaslarını turizm sahəsi üzrə kadr hazırlığı və inkişafı ilə bağlı klassik və müasir nəzəriyyələr, yerli və xarici ölkə iqtisadçı alimlərinin turizm sahəsinin kadr hazırlığı və inkişafı problemlərinə həsr edilmiş elmi-təcrübi tədqiqatları və s. təşkil edir. Dissertasiya işinin yazılmasında Azərbaycan Respublikasının Turizm haqqında Qanunundan, Azərbaycan Respublikası Prezidentinin turizm sahəsi ilə bağlı fərman və sərəncamlarından və digər hüquqi normativ sənədlərdən geniş istifadə edilmişdir. Tədqiqat zamanı sistemli yanaşma, məntiqi ümumiləşdirmə, statistik təhlil, ekspert qiymətləndirmələri, müşahidələr, sorğu, riyazi-iqtisadi modelləşdirmə, analiz və sintez kimi tədqiqat üsullarından istifadə edilmişdir. Tədqiqatın informasiya bazasını Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin, Dövlət Turizm Agentliyinin (keçmiş Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi), Elm və Təhsil Nazirliyinin, Ümumdünya Turizm Təşkilatının illik hesabatları və göstəriciləri təşkil edir.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**
– turizm sahəsində kadr potensialı məsələlərinin konseptual əsaslarının sistemləşdirilməsi aparılmalı və regionun, müəssisənin və ayrıca işçinin kadr potensialının strukturu və ona təsir edən amillər üzə çıxarılmalıdır;
– turizm üzrə mövcud şəraitə uyğun peşəkar kadrlara qarşı qoyulan tələblərin müəyyən edilməsinə və bu yeni tələblər əsasında turizm sahəsində kadr hazırlığının metodoloji prinsiplərin müəyyən edilməsinə ciddi ehtiyac vardır;
– müxtəlif ölkələrin təcrübəsinin araşdırılması əsasında turizm sahəsində kadr hazırlığının milli xüsusiyyətlərinin üzə çıxarılması və onun ölkəmizdə tətbiqi imkanlarının müəyyən edilməsi diqqət mərkəzində olmalıdır;
– Azərbaycan turizm sahəsinin inkişafının mövcud vəziyyətinin

təhlil edilməsi, kadr hazıırlığındakı problemlər və meyllərin aşkar edilməsi, turizm xidmətinin düzgün qurulmasının təməl şərtlərindən biri hesab edilir;

- turizm sahəsi üzrə kadr hazırlığına dair bu sahədə fəaliyyət göstərən strukturlarda sorğular aparılmalı və emprik təhlillər əsasında onun cari vəziyyəti qiymətləndirilməlidir;
- Azərbaycanda turizm sahəsi üzrə kadr potensialı, ölkənin ÜDM-da turizmin payı və respublikamıza turizm məqsədi ilə gələn turistlərin sayı haqqında məlumatların ekonometrik təhlili əsasında iqtisadi-riyazi metodların tətbiq edilərək proqnoz modellərinin qurulması tələb olunur;
- ölkə iqtisadiyyatının turizm sahəsində kadr potensialının artırılmasının prioritet istiqamətlərinin müəyyən edilməsi;
- turizm sahəsində kadr hazırlığında mütəxəssislərin təkmilləşdirilməsi üzrə tədbirlər planın müəyyən edilməsi və turizm üzrə mütəxəssislərin ixtisas səviyyələrinin qiymətləndirilməsi xüsusi əhəmiyyət kəsb edir;
- Azərbaycanda turizm sahəsi üzrə peşəkar kadr hazırlığı sisteminin fəaliyyətinin səmərəli mexanizmlərinin təkmilləşdirilməsinə dair müvafiq təklif və tövsiyyələrin işlənib hazırlanması əsas prioritet hesab edilir;

**Tədqiqatın elmi yeniliyi**. Tədqiqatın elmi yeniliyi aşağıdakılardan ibarətdir:

- turizm sahəsində kadr potensialının formalaşdırılması və inkişafının məsələlərinin konseptual əsasları sistemləşdirilmişdir;
- turizm sahəsi üçün peşəkar kadr hazırlığının xüsusiyyətləri aşkarlanmış və metodoloji prinsipləri müəyyən edilmişdir;
- dünya ölkələrinin təcrübəsinin təhlili əsasında ayrı-ayrı ölkələrdə turizm üzrə kadrların hazırlığının özünəməxsus xüsusiyyətləri üzə çıxarılmışdır;
- Azərbaycanda turizm sahəsinin inkişaf dinamikasının təhlili əsasında onun inkişafı meylləri müəyyən edilmişdir;
- turizm sahəsində kadr hazırlığı məsələlərinə dair sorğular və statistik təhlillər əsasında ölkəmizdə onun müasir vəziyyətinin qiymətləndirilməsi aparılmışdır;
- ölkəmizdə turizm sahəsi üzrə kadr potensialı ilə turizm üzrə

xarakterik sahələrdə yaradılan əlavə dəyərin ÜDM-da payı və respublikamıza turizm məqsədi ilə gələn turistlərin sayı arasında korrelyasiya asılığı müəyyən edilmişdir;

- milli iqtisadiyyatın turizm sahəsində kadr potensialının artırılması yolları tədqiq edilmişdir;
- Azərbaycanda turizm sahəsində kadr hazırlığında mütəxəssislərin təkmilləşdirilməsi üzrə tədbirlər və turizm mütəxəssislərinin ixtisas səviyyələrinin yüksəldilməsi istiqamətlərinə dair təklif və tövsiyyələr irəli sürülmüşdür;
- ölkəmizdə turizm sahəsində kadr hazırlığının təşkilinin səmərəli mexanizmləri işlənib hazırlanmışdır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti**. Tədqiqat işinin nəticələri və onların əsasında hazırlanmış təklif və tövsiyələrin reallaşması ölkənin turizm sahəsində kadr hazırlığının inkişafına, turizmin iqtisadi səmərəliliyinin daha da artmasına kömək edəcəkdir. Təkliflər turizm təhsili sistemində dövlət təhsil standartlarının təkmilləşdirilməsi və turizm müəssisələri ilə təhsil müəssisələri arasında effektiv qarşılıqlı əlaqə sistemi üzrə metodiki işin praktiki cəhətdən həyata keçirilməsində istifadə oluna bilər. Əldə olunmuş nəticələr turizmin tədrisi üzrə ixtisaslaşan ali məktəblərdə təhsilin keyfiyyətinin yüksəldilməsi sistemi əsasında təhsilin idarə olunmasının yeni siyasətinə doğru keçidin reallaşdırılmasının stimullaşdırılmasına yönəlib. Dissertasiyada işlənib hazırlanmış nəzəri və metodoloji müddəalar, metodiki və praktiki təkliflər həm tədris, həm də turizm müəssisələrində kadr hazırlığı işinin təşkili prosesində istifadə oluna bilər.

**Aprobasiyası və tətbiqi.** Dissertasiyanın əsas elmi-nəzəri müdəaları, nəticə və təklifləri Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi nüfuzlu jurnallar və konfrans materiallarında cəmi 17 olmaqla, 12 məqalədə və 5 tezisdə, o cümlədən 2 məqalə, 3 tezis xaricdə dərc edilmişdir. Konfrans materialları sırasında “Education and employment cooperation assessment in Azerbaijan tourism industry” (Свищов, 2017), “Современные тенденции в системе туризма” (Кишинев, 2018), “Azərbaycanda təhsil səmayələrinin effektivliyinin səmərəliliyinin qiymətləndirilməsi” (Bakı, 2018), “Kadr hazırlığı

məsələlərinin turizm sahəsinin rəqabətqabiliyyətliliyinin formalaşdırılması baxımından əhəmiyyəti" (Bakı, 2019), "Анализ и оценка современного состояния туристической подготовки в Азербайджане" (София, 2020) adlı tezisləri göstərmək olar.

Tədqiqat zamanı müəllifin həmçinin "Azərbaycanda turizm sahəsinin kadr planlaşdırılması və kadr ehtiyatının təhsil vəziyyəti" (Bakı, 2017), "Təhsil sahəsinin investisiyalaşdırılmasında səmərəliliyin artırılması istiqamətləri" (Bakı, 2017), "Turizmdə təhsil və sənaye əməkdaşlığının effektivliyi" (Bakı, 2017), "Vocational education problems in tourism sphere of Azerbaijan" (Kiyev, 2017), "Ali təhsil müəssisələrində təhsilin keyfiyyəti təminatı" (Bakı, 2018), "Econometric analysis of Dynamics of Personnel Training in Tourism Sphere" (Türkiyə, 2021) adlı məqalələri dərc olunmuşdur.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Azərbaycan Turizm və Menecment Universiteti.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya işi giriş, 3 fəsil, 9 paraqrafdan, nəticə və ədəbiyyat siyahısından ibarətdir. Giriş (14781 işarə), I fəsil (82837 işarə), II fəsil (37794 işarə), III fəsil (71506 işarə), nəticə (6654 işarə) və istifadə edilmiş ədəbiyyat siyahısı (18618 işarə) üzrə ümumi həcm 244953 işarədir. Dissertasiyanın işarə sayı cədvəllər, şəkillər, istifadə olunmuş ədəbiyyat siyahısı və ixtisarların siyahısı istisna olmaqla 213572-dir.

## İŞİN ƏSAS MƏZMUNU

Dissertasiya işinin giriş hissəsində mövzunun aktuallığı əsaslandırılmış, tədqiqatın məqsəd və vəzifələri, metodları səciyyələndirilmiş, müdafiəyə çıxarılan əsas müddəalar şərh edilmiş, işin elmi yenilikləri, nəzəri-praktiki əhəmiyyəti və aprobasiyası öz əksini tapmışdır.

Dissertasiya işinin **"Turizm sahəsində kadr hazırlığının konseptual əsasları" adlanan birinci fəslində** turizm sahəsində kadr potensialı məsələlərinin konseptual əsaslarının sistemləşdirilməsi aparılaraq turizm üzrə peşəkar kadrlara qarşı qoyulan tələblər müəyyən edilmiş və bu tələblərin əsasında turizm sahəsində kadr

hazırlığının metodoloji prinsipləri müəyyən edilmişdir. Həmçinin müxtəlif ölkələrin təcrübəsinin öyrənilməsi əsasında turizm sahəsində kadr hazırlığının milli xüsusiyyətləri üzə çıxarılmışdır. Müəllif tərəfindən regionun, müəssisənin və ayrıca işçinin kadr potensialının strukturu və ona təsir edən amillər üzə çıxarılmışdır. Turizm sahəsində kadr potensialının formalaşması məsələlərinə müxtəlif-amil, resurs və s. yanaşmalar təhlil edilərək tədqiqat işində bu yanaşmalara münasibət bildirilmişdir. Burada müəssisənin kadr potensialı, işçinin kadr potensialı və regionun kadr potensialı, onun formalaşmasına təsir edən amillər kompleksi üzə çıxarılmışdır. Burada həm daxili, həm də xarici amillər üzə çıxarılmış, daxili amillərdən çıxış edərək də müəssisənin kadr potensialının idarəetmə sisteminin struktur elementləri də müəyyən edilmişdir.




**Sxem 1. İşçinin fərdi əmək potensialı**

*Mənbə: müəllif tərəfindən tərtib edilmişdir.*

Alimlərin böyük əksəriyyəti "kadr" anlayışı dedikdə müəssisədə çalışan işçilərin məcmusunu nəzərdə tutur. *"Q.V.Şekin "kadrlara" təşkilatın işçilərinin ştat heyətini aid edir ki, onu daha sonra iki qrupa bölür: rəhbər kadrlar qrupu və fəhlə (işçi) kadrlar qrupu".*[1] Digər müəlliflər "kadr" məfhumuna yalnız xüsusi peşə hazırlığı tələb edən funksiyaları yerinə yetirən müəssisə əməkdaşlarını aid edirlər.

Turizm sahəsi üzrə peşəkar kadr hazırlığının xüsusiyyətləri aşkarlanmış və metodoloji prinsipləri müəyyən edilmişdir. Belə ki, turizm sferasında göstərilən xidmətlərin geniş çeşidi həm bu sahədə çalışan mütəxəssislərin biliklərinin universallığını, həm də müxtəlif səviyyələrdə - mehmanxana kompleksinin animatorundan başlayaraq rəhbərinə qədər, idarəetmə səriştəsini, qabiliyyət və bacarıqlarını tələb edir. Odur ki, turizm biznesinin inkişaf etməsi ilə müşahidə olunan ən böyük tələbat, ən azı son onillik ərzində, turizm sahəsi üçün iqtisadiyyat və menecment üzrə mütəxəssislərin hazırlanması sahəsində yaranır. Lyons öz araşdırmalarında qeyd edirki, biznes mühitində qazanmaq və rəqabətə tab gətirmək istəyən müəssələr üçün kadrlarının təlimi və təkmilləşdirilməsi qaçılmazdır. Müəssisələrin rəqabətqabiliyyətliliyini saxlamaqlarının əsas yolu kadrların təlim və təkmilləşdirilməsidir. Təlim və təkmilləşdirmənin uğurlu olması bir sıra amillərdən asılı ola bilər. Qanunvericiliyi və texnoloji dəyişikliyi əhatə edən xarici mühit təlim-tədris sisteminə yüksək dərəcədə təsir edir"[2]

Turizm sahəsində müəssisələrin fəaliyyətinin səmərəliliyi işçilərin sayından və onların peşəkarlıq hazırlığından asılıdır. *"Turist xidmətlərinin həcm və keyfiyyəti ilə əlaqədar tələblərin dəyişməsi, turizm fəaliyyətinin yeni növ və formalarının yaranması ilə, sahə hər zaman təkmilləşdirilmə prosesindədir və bitmiş proses hesab etmək olmaz. Buna müvafiq olaraq bu sahə üzrə kadrların təkmilləşdirilməsi də daim aktualdır. Hesab edilir ki, turizm sektorunun effektiv və peşəkar idarəedilməsi turizmin inkişafının əsas şərtidir".*[3]

---

[1] Щекин, Б.Г. Основы кадрового менеджмента: учебник. – Киев: МАУП, – 2009. – 288 с

[2] Lyons, P. Training for Template Creation: A Performance Improvement Method // Journal of European Industrial Training, – 2008.32(6), – 472 – 489 p.

[3] Kasumov, R.M. Beynəlxalq turizm bazarı / Monoqrafiya. – Bakı: "İqtisad universiteti" nəşriyyatı, – 2012. – 270 s.

Müxtəlif ölkələrdə fərqli-fərqli təhsil sistemlərinin özəl xüsusiyyətlərə malik olmasına baxmayaraq, bütün dövlətlərdə, o cümlədən Azərbaycan Respublikasında onun əsas etibarilə ümumi struktura malik olması müşahidə olunur:

1. İbtidai təhsil.
2. Orta təhsil: ümumi və xüsusi ixtisas təhsili.
3. Ali təhsil.
4. Ali məktəbdən sonrakı hazırlıq.
5. Həm iş prosesində, həm də istehsalatdan ayrılmaq şərtilə ixtisas səviyyəsinin artırılması və mütəxəssislərin yenidən hazırlanması.

Qeyd etdiyimiz xüsusiyyətlərin araşdırılması göstərmişdir ki, turizm təhsilinin və turizm fəaliyyəti üçün mütəxəssislərin hazırlanması keyfiyyəti YUNESCO, ÜTT kimi nüfuzlu təşkilatların sənədlərində, habelə digər beynəlxalq aktlarda öz əksini tapmışdır. Onların arasında xüsusi yer turizm və səyahətlər üzrə BMT-nin Roma Konfransının sənədləri (1963-cü il), dünya turizminə həsr olunmuş Manila konfransının sənədləri, Haaqada keçirilmiş Parlamentlərarası Konfransın sənədləri (1989-cu il), Osaka şəhərində baş tutmuş turizm üzrə nazirlərin Ümumdünya konfransının sənədləri (1994-cü il), eləcə də "Turizm xartiyası" (1985-ci il) tutur.

Sadaladığımız bu sənədlərdə turizm sferasında fəaliyyət göstərən kadrların peşəkarlıq hazırlığına dair geniş tələblər öz əksini tapmışdır. Məsələn, Turizm xartiyasında deyilir: *"Turizmin formalaşmış humanist təbiətinə töhfə vermək üçün turizm sənayesinin işçiləri və turizm xidmətləri göstərən şəxslər öz peşəkar fəaliyyətləri çərçivəsində üzərlərinə götürdükləri hər hansı öhdəliklərə ciddi əməl etməli və təqdim olunan turizm məhsulunun yüksək keyfiyyətinə zəmanət verməlidirlər"*[4].

Turizm sahəsi üzrə kadr hazırlığında etalon-qonaqların qəbulu (qonaqpərvərlik) və turizm menecmenti işveçrə təhsili hesab olunur. Ərazi nöqteyi-nəzərdən bir o qədər də böyük olmayan İsveçrədə mehmanxana və turizm menecmenti tədris olunan onlarla sayda tədris müəssisələri fəaliyyət göstərir. Bütün müəssisələr özəl tədris ocaqları

---

[4] Bilalov, B.Ə. Turizmin tarixi. Dərs vəsaiti. / B.Ə.Bilalov. – Bakı: Mütərcim, – 2008. – 328 s.

olaraq işləyir. Bu tipli müəssisələrin açılmasına hökumətdən hər hansı xüsusi razılığın alınması tələb edilmir. Nəzəri baxımından, fəaliyyət göstərmək üçün tədris müəssisəsinin xüsusi akkreditasiyaya ehtiyacı yoxdur: müəssisənin sahibi proqramı, tədris prosesinin səviyyəsini və keyfiyyətini özü müəyyən edir. Təcrübəyə əsaslanaraq deyə bilərik ki, tədris müəssisəsinin tanıması və yaxşı imicə malik olması mühüm və həlledici şərtdir. İsveçrədə peşəkar assosiasiyalar əsasən turizm və mehmanxana işi üzrə tədris müəssisələri təsis edirlər.

Turizm sənayesi üçün kadr hazırlığına dünyanın hər yerində böyük diqqət yetirilir. ÜTT-nin məlumatına görə, 20-ci əsrin 90-cı illərinin əvvəlində Avropada 105 ali və 139 peşə təhsil müəssisəsi, Amerikada müvafiq olaraq 6 və 17, Asiya və Sakit okeanda 13 və 35 təhsil müəssisəi fəaliyyət göstərirdi. Turizm sənayesi üçün kadr hazırlığını həyata keçirən ən çox sayda müəssisə Böyük Britaniyada - 37 yerləşir.

**“Turizm üzrə kadr hazırlığının müasir vəziyyətinin təhlili və qiymətlənidirilməsi” adlanan ikinci fəsildə** Azərbaycanda turizm sahəsinin inkişafının müasir tendensiyaları üzə çıxarılmışdır və dinamikası göstərilmiş, turizm sahəsi üzrə kadr hazırlığına dair bu sahədə fəaliyyət göstərən strukturlarda aparılmış sorğular və emprik təhlillər əsasında onun cari vəziyyətinin qiymətləndirilməsi aparılmışdır. *“Makroiqtisadi artımın və ümumi daxili məhsulun bölüşdürülməsi və yenidən bölüşdürülməsinin bir hissəsi kimi ölkələr üzrə turizmin inkişafı nümunələri onları bir-birindən fərqləndirir. Azərbaycan əhalisinin sayından, onun turizm xidmətlərindən istifadə edə bilən kontingentinin sayından, turizmin maddi-texniki bazasının təşkili üçün mövcud olan vəsaitin miqdarından ölkədə turizmin potensial göstəricisini müəyyən etmək olar”.*[5]

Azərbaycanda turizm üçün xarakterik sahələr üzrə statistik məlumatlara nəzər yetirsək, bu zaman 2013-2021-ci illər arasında turizm sahəsində çalışan işçilərin sayında artım müşahidə edə bilərik. Maraqlı məqam isə odur ki, sahədə çalışan işçilərin sayı maximum həddə 2019-cu ildə çatıb. Covid-19 pandemiyası və II Qarabağ müharibəsi dövründə isə bu göstəricinin azaldığını görmək olar.

---

[5] Əlirzayev Ə.Q., Aslanova S.İ., Turizmin inkişafının sosial-iqtisadi problemləri, Bakı: Adiloğlu nəşriyyatı, 2006, 164 səh.

**Cədvəl 1.**

**Azərbaycanda turizm üçün xarakterik sahələr üzrə əsas göstəricilərin dinamikası**

| | 2015 | 2022 | 2022-ci ildə 2015-ci ilə nisbətən +;- |
|---|---|---|---|
| Turizm üçün xarakterik sahələrdə çalışan işçilərin sayı, nəfər | 49449 | 63109 | +13660 |
| Turizm üçün xarakterik sahələrdə yaradılmış əlavə dəyərin həcmi, milyon manat | 2437,3 | 3917,8 | +1480,5 |
| Turizm üçün xarakterik sahələrdə yaradılan əlavə dəyərin ölkənin ümumi daxili məhsulunda xüsusi çəkisi, faizlə | 4,5 | 2,9 | -1,6 |
| Turizm üçün xarakterik sahələr üzrə qoyulan investisiyaların həcmi, milyon manat | 1063,9 | 99,3 | -964,6 |

*Mənbə: stat.gov.az https://stat.gov.az/source/tourism/ əsasında müəllif tərəfindən hazırlanmışdır*

Analoji olaraq turizm üçün xarakterik sahələrdə yaradılmış əlavə dəyərin həcmində də 2013-2022-ci illər arasında artım müşahidə edilir. Beləki, 2013-cü ildə bu göstərici 2 mln. təşkil etdiyi halda 2019-cu ildə artıq 3 mln.u keçib, 2018-ci ildə 3464,3, 2019-cu ildə isə maksimal həddə çataraq 3704,9 təşkil etmişdir. Lakin 2020-ci ildə bu göstəricidə azalma müşahidə edilmişdir.

**Cədvəl 2.**

**Turizm sahəsində yaradılan əlavə dəyərin dinamikası**

| İllər | Turizm üçün xarakterik sahələrdə yaradılmış əlavə dəyərin həcmi, milyon manat | Turizm üçün xarakterik sahələrdə yaradılan əlavə dəyərin ölkənin ümumi daxili məhsulunda xüsusi çəkisi, faizlə |
|---|---|---|
| **2013** | 2 080,2 | 3,6 |
| **2022** | 3 917,8 | 2,9 |
| **2022-ci ildə 2013-cü ilə nisbətən +;-** | +1837,6 | - 0,7 |

*Mənbə: stat.gov.az https://stat.gov.az/source/tourism/ əsasında müəllif tərəfindən hazırlanmışdır*

Koronavirus pandemiyası turizm iqtisadiyyatı üçün görünməmiş bir böhrandır. Bu böhranın bir çox insanlar, ərazilər, və müəssisələr üçün, xüsusən də turizmin iqtisadiyyatın əhəmiyyətli bir hissəsi olduğu ölkələrdə, şəhərlərdə və bölgələrdə hiss edilən çox maddi təsirləri var.

Azərbaycanda da pandemiya şəraitində iqtisadiyyata dəstək istiqamətində işlər görülmüşdür. Belə ki, 2021-ci ildə (10 ay) 243 mindən çox muzdlu işçiyə dəstək kimi 250 milyon manatadək vəsait ödənilmiş, 108 minə qədər fərdi mikro sahibkara 113 milyon manatdan çox maliyyə vəsaiti verilmişdir. Sahibkarlara yeni verilən bank kreditlərinin 60 faizinin dövlət zəmanəti ilə təminatı, habelə onların banklar qarşısında mövcud kredit borcları subsidiyalaşdırılmışdır.[6]

Tədqiqatın gedişatı zamanı turizm sənaye müəssisələrində fəaliyyət göstərən kadrların mövcud vəziyyətinin təhlili məqsədilə Bakı şəhərində 2018-ci ildə 145 respondent arasında sorğu keçirilmişdir. Aparılan sorğunun nəticələrindən aydın olur ki, hal-hazırda respublika üzrə turizm sektorunda ən böyük problem işçilərin xarici dil biliklərinin zəif olması və təcrübə yetərsizliyidir. Respondentlərin cavablarından aydın görünür ki, yalnız xarici dil bilmək kifayət deyil, bu yalnız bəzi sahələrdə kifayət edir. Məsələn, qida sektorunda təcrübəli aşbaz və ofisiant problemi də çox kəskin şəkildə qarşıda durur.




**Diqram 1. Sorğuda iştirak edən respondentlərin demoqrafik xüsusiyyətləri**

[6] Səmədzadə, Z. Ə. Qarabağ İqtisadiyyatı 100 ildə. V cild / Z.Ə.Səmədzadə. – Bakı, 2022. – 856 s.

Azərbaycanda turizm sahəsi üzrə kadr potensialı, turizm üçün xarakterik sahələrdə yaradılmış əlavə dəyərin ölkənin ÜDM-da payı və respublikamıza turizm məqsədi ilə gələn turistlərin sayı haqqında məlumatların ekonometrik təhlili əsasında iqtisadi-riyazi modelləşdirmə metodlarını tətbiq edərək proqnoz modelləri qurulmuşdur. Artıq qeyd edildiyi kimi turizm ölkənin mədəni, tarixi və təbii ehtiyyatlarının ölkə ziyarətçilərinə təqdim etməklə kifayətlənimir, həm də iqtisadi fəaliyyəti canlandırır. Bu baxımdan araşdırma nöqteyi nəzərindən qarşıda bir neçə sualın açılması tədqiqatın ahəngdarlığını artırmış olardı. Bu suallar əsasən ölkəyə gələn hər bir turistin turizm sahəsi üzrə kadr hazırlığına təsirini və turizm sahəsi üzrə kadr hazırlığının turizm üzrə yaradılmış ümumi daxili məhsula təsirinin müəyyən olunmasıdır**.**

Verilmiş məlumatlar əsasında əsalandırılmış iqtisadi riyazi modelləşdirmə imkanlarını tətbiq edilərək proqnoz modelləri müəyyən edilmişdir. Eviews tətbiqi proqramında qimətləndirmənin nəticəsi aşağıdakı kimi olmuşdur:

**Cədvəl 3.**

**Model (1)-nin əsas statistik xarakteristikaları**

| | | | | |
|---|---|---|---|---|
| Dependent Variable: LOG(TSMS) | | | | |
| Method: Least Squares | | | | |
| Date: 12/13/23 Time: 18:30 | | | | |
| Sample (adjusted): 2012 2021 | | | | |
| Included observations: 10 after adjustments | | | | |
| Convergence achieved after 51 iterations | | | | |
| MA Backcast: 2011 | | | | |
| Variable | Coefficient | Std. Error | t-Statistic | Prob. |
| | | | | |
| C | -27.91038 | 11.58950 | -2.408247 | 0.0469 |
| LOG(OGTS(-4)) | 2.378294 | 0.792580 | 3.000698 | 0.0199 |
| MA(1) | 0.939774 | 0.122069 | 7.698722 | 0.0001 |
| | | | | |
| R-squared | 0.837942 | Mean dependent var | | 6.783108 |
| Adjusted R-squared | 0.791639 | S.D. dependent var | | 0.421051 |
| S.E. of regression | 0.192195 | Akaike info criterion | | -0.217284 |
| Sum squared resid | 0.258573 | Schwarz criterion | | -0.126509 |
| Log likelihood | 4.086421 | Hannan-Quinn criter. | | -0.316865 |
| F-statistic | 18.09715 | Durbin-Watson stat | | 1.321529 |
| Prob(F-statistic) | 0.001713 | | | |
| Inverted MA Roots | -.94 | | | |
| | | | | |

Qrafik 1.-də turizm üzrə məzunların sayının (TSMS) statistik faktiki qiymətləri (Actual), modeldən alınan qiymətlər (Fitted) və onların arasındakı fərqlərin (Residual) dinamikası verilmişdir. Qrafikdən göründüyi kimi modeldən alınan qiymətlər faktiki qiymətlərə xeyli yaxındır.




**Qrafik 1. Turizm üzrə məzunların sayının statistik faktiki qiymətləri (Actual), modeldən alınan qiymətlər (Fitted) və onların arasındakı fərq**

(2) modelindən nəticə çıxır ki, turizm sahəsində çalışan kadrların keyfiyyətinin artırılması məqsədi ilə 4 il əvvəl ölkəyə turizm məqsədi ilə gələnlərin sayının 1% artması turizm ixtisası üzrə təhsil alan məzunların sayını 2,37% artırır.

Tədqiqatın digər maraq kəsb edən məqamı turizm ixtisası üzrə təhsil alan məzunların say artımının bu sektora gətirdiyi iqtisadi səmərəliliyin müəyyən edilməsidir. Bunun üçün turizm ixtisası üzrə təhsil alan məzunların saynın turizm üçün xarakterik sahələrdə yaradılmış əlavə dəyərin ölkənin ÜDM-da payı arasında əlaqə müəyyən edilmişdir.

**Cədvəl 4.**

## Model (2)-nin əsas statistik xarakteristikaları

| | | | | |
|---|---|---|---|---|
| Dependent Variable: LOG(TUEDH) | | | | |
| Method: Least Squares | | | | |
| Date: 12/13/23 Time: 19:26 | | | | |
| Sample: 2008 2021 | | | | |
| Included observations: 14 | | | | |
| Convergence achieved after 39 iterations | | | | |
| MA Backcast: 2006 2007 | | | | |
| Variable | Coefficient | Std. Error | t-Statistic | Prob. |
| | | | | |
| | | | | |
| C | 4.282759 | 0.665036 | 6.439890 | 0.0001 |
| LOG(TSMS) | 0.530774 | 0.104684 | 5.070270 | 0.0005 |
| COVID19 | -0.820148 | 0.189165 | -4.335614 | 0.0015 |
| MA(2) | 0.280004 | 9.19E-05 | 3045.236 | 0.0000 |
| R-squared | 0.898281 | Mean dependent var | | 7.451369 |
| Adjusted R-squared | 0.867765 | S.D. dependent var | | 0.583946 |
| S.E. of regression | 0.212347 | Akaike info criterion | | -0.026235 |
| Sum squared resid | 0.450912 | Schwarz criterion | | 0.156353 |
| Log likelihood | 4.183644 | Hannan-Quinn criter. | | -0.043137 |
| F-statistic | 29.43657 | Durbin-Watson stat | | 1.712874 |
| Prob(F-statistic) | 0.000028 | | | |




**Qrafik 2. Turizm üzrə məzunların sayının statistik faktiki qiymətləri (Actual), modeldən alınan qiymətlər (Fitted) və onların arasındakı fərq**

(4) Modelindən nəticə çıxır ki, turizm sahəsində çalışan kadrların keyfiyyətinin artırılması məqsədi ilə turizm sahəsində təhsil alanlarının və bitirən məzunların sayının 1% artması 1 il sonra turizmin ÜDM-ni 0,53% artırır. Model (4) həmçinin göstərir ki, COVİD19 pandemiyası turizm sektorunun əlavə dəyərinin ÜDM-də payını xeyli azaldaraq 82% aşağı salmışdır.

Dissertasiya işinin üçüncü fəsli **"Azərbaycanda turizm sahəsində kadr hazırlığı sisteminin təkmilləşdirilməsi istiqamətləri"** adlanır. Ölkə iqtisadiyyatının turizm sahəsində kadr potensialının artırılmasının prioritet istiqamətləri göstərilmişdir. Turizm sahəsi üçün kadrların hazırlanması sisteminin təkmilləşdirilməsi üzrə tədbirlər kompleksi işlənib hazırlanmışdır:

Ölkə Prezidentinin 6 dekabr 2016-cı il tarixli Fərmanı ilə təsdiq olunmuş iqtisadiyyatımızın perspektiv istiqamətləri üzrə Strateji Yol Xəritələrinin icra prosesləri göstərdi ki, regionlarda olan resurslardan, demək olar ki, dəyərincə istifadə olunmur, kadr potensialının formalaşdırılması və inkişaf etdirilməsi vacibdir. İqtisadi rayonlarımızda bir sıra xidmətyönlü sahələrin, turizm sektorunun imkanlarından, təəssüf ki, pərakəndə istifadə olunur. Bu istiqamətdə turizm sektorunun yüksək potensialından istifadə edilməsi və bu perspektivli iqtisadiyyat sahəsinin ölkəmizin əsas iqtisadiyyat sahələrindən birinə çevrilməsi, burada daha çox yeni iş yerlərinin yaradılması və əlavə dəyər imkanlarının formalaşdırılması, iqtisadiyyatın strukturunda turizm sektorunun payının artırılması vacib şərtlərdəndir. [7]

Turizm sahəsi üçün kadrların hazırlanması sisteminin müasirləşdirilməsini həyata keçirmək məqsədilə, kadrların hazırlanması sisteminin bütün subyektləri üçün, dövlət təşkilatları üçün, tədris müəssisələri, ictimai-peşəkar assosiasiyalar və birliklər üçün və turizm sahəsinin müəssisə və təşkilatları üçün tədbirlər kompleksi təklif edilir.

Azərbaycanda turizm sahəsi üzrə peşəkar kadr hazırlığı sisteminin

[7] Quliyev E.A. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının Azərbaycanın davamlı inkişafında rolu / Monoqrafiya. – Bakı: "Kooperasiya" nəşriyyatı, – 2023. – 320 s.

fəaliyyətinin səmərəli mexanizmləri işlənib hazırlanmışdır. Turizm sahəsi kompleksinin səmərəli inkişafını kadrların hazırlanması və ixtisas səviyyələrinin artırılması sisteminin təkmilləşdirilməsi istiqamətində müvafiq tədbirləri həyata keçirmədən təmin etmək mümkün deyil.

Turizm sahəsinin inkişafı ilə əlaqədar olaraq turizm kompleksinin tələblərinə tam uyğun bir şəkildə peşəkar təhsilin məzmununda və strukturunda müasirləşdirmə istiqamətli əhəmiyyətli tədbirlərin həyata keçirilməsi lazımdır. Beləki, təlim, tədrisi prosesinin üsul və texnologiyalarının yüksək templərlə inkişaf etdiyini, biliklərin sürətlə köhnəldiyini nəzərə alsaq əminliklə söyləyə bilərik ki, turizm sahəsində çalışan işçilərin, habelə profilli tədris müəssisələrində fəaliyyət göstərən müəllimlərin müntəzəm yenidən hazırlığını və ixtisas səviyyələrinin yüksəldilməsini həyata keçirmək lazımdır. Tədris prosesinin keyfiyyətinin yüksəldilməsi məqsədilə turizm sahəsində fəaliyyət göstərən işçiləri mütəxəssislərin iştirakı ilə işlənib hazırlanmış yeni tədris-metodiki materialların ərsəyə gətirilməsi prosesini, nəşrini və tətbiqini yenidən dəyərləndirmək lazımdır.

Turizm sahəsi kompleksində işləyən mütəxəssislərin yenidən hazırlanması və ixtisas səviyyələrinin artırılması istiqamətində tətbiq ediləcək proqramların işlənib hazırlanması, zənnimizcə, turizm xidmətləri işçilərinin vəzifə öhdəliklərinin yerinə yetirilməsi üçün ixtisaslaşdırma tələblərin, eləcə də peşə standartların nəzərə alınması şərtilə həyata keçirilməlidir ki, burada turizm müəssisəsinin əsas fəaliyyət istiqamətləri üzrə mütəxəssislərin biliklərinə, bacarıqlarına və səriştələrinə dair irəli sürülən müvafiq tələblər qısaca və dürüst şəkildə ifadə olunmalıdır.

Qloballaşma, kompüterləşmə, bir çox mehmanxana müəssisələrinin texniki təchizatı, otellərin bütün xidmətlərində müasir avtomatlaşdırılmış idarəetmə sistemlərinin tətbiqi, bronlanmanın beynəlxalq sistemlərinə qoşulma, marketinqin, keyfiyyət sisteminin tətbiqi, Ümumdünya Turizm Təşkilatına daxil olma - bunların hamısı turizm kompleksində çalışan işçidən daim yenidən hazırlığa və ixtisas artırmaya cəlb edilməsini, biliklərin yenilənməsini, praktiki səriştə və bacarıqların inkişaf etdirilməsini tələb edir.

İşçi heyətinə aid tələblərin müəyyən edilməsi prosesi peşəkar

standartların və yerinə yetirilən işin texnologiyasının nəzərə alınması şərtilə onun keyfiyyət xarakteristikalarının formalaşdırılmasını nəzərdə tutur.

**Cədvəl 5.**

**Əməkdaşın peşə parametrlərinə əsaslanan peşəkar profili**

| Parametrlər | Parametrlərin məzmunu |
|---|---|
| Əmək məhsuldarlığı | İşin yerinə yetirilmə keyfiyyəti və müddəti, resursların səmərəli istifadəsi, nəticələrin etibarlılığı |
| Qabiliyyətlər | Əldə olunmuş təhsilin səviyyəsi; zəruri olan biliklər (əsas və əlavə); peşəkar fəaliyyətin müəyyən sferasında praktiki səriştələr; müəyyən vəzifələrdə iş təcrübəsi; əməkdaşlığın və qarşılıqlı yardımın vərdişləri |
| Şəxsi keyfiyyətlər | Müəyyən fəaliyyət növü üçün zəruri olan fərdi keyfiyyətlər; peşəkar iş yükünün mənimsənilməsi qabiliyyəti; kommunikabellik, xarici görünüş; beynin, diqqətin konsentrasiyası qabiliyyəti, öyrənmə bacarığı |
| İşçinin motivasiyası | Peşəkar maraqlar sferası; Özünü ifadə və özünü reallaşdırmaya doğru səylər; Öyrənmək qabiliyyəti; Vəzifənin müəyyənləşdirilməsi üzrə işdə maraqlı olmaq, peşə perspektivlərinin müəyyənliyi |

*Mənbə: müəllif tərəfindən tərtib olunmuşdur.*

İşğaldan azad edilmiş Qarabağ regionu turizm potensialı baxımından Azərbaycanın ən vacib regionlarından biridir. Qarabağın turizm potensialı çoxşaxəli hesab olunur. Burada sağlamlıq, istirahət turizmi, qış turizmi, dağ turizmi, ov turizmi kimi turizmin bir çox növləri üçün bütün imkanlar mövcuddur. Ona görə də işğaldan azad olunmuş ərazilərimizdə turizmin inkişaf etdirilməsi bu gün üçün çox aktual məsələ hesab olunur.

Qeyd etdiyimiz kimi “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” sərəncamında nəzərdə tutulmuş 5 milli prioritetdən birində İşğaldan azad olunmuş ərazilərə böyük qayıdış nəzərdə tutulmuşdur. Və bu ərazilərin malik olduğu iqtisadi imkanlar arasında turizm sahəsi xüsusilə fəqrlənir. Bu baxımdan işğaldan azad edilmiş ərazilərin turizm inkişaf strategiyası Prezident İlham Əliyevin tapşırığına əsasən hazırlanıb.

Mövcud şəraitdə Qarabağ regionun turizm potensialının inkişaf etdirilməsi üçün turizm sahəsi üzrə ixtisaslı kadrların hazırlığı və təkmilləşdirilməsi tədbirlərinin həyata keçirilməsi vacibdir.

"Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın məqsədlərindən əhalinin dayanıqlı məskunlaşmasının təmin edilməsi istiqamətində 5.1.9. bəndində insan kapitalının inkişaf etdirilməsi nəzərdə tutulub.[8] Bu məqsədlə Azərbaycan Respublikasının Prezidentı İlham Əliyev "Qarabağ Universitetinin yaradılması haqqında" Sərəncam imzalayıb.

Sərəncama görə, regionun sosial-iqtisadi ehtiyaclarına uyğun yüksəkixtisaslı kadr tələbatının ödənilməsi və tarixən mövcud olmuş təhsil ənənələrinin yaşadılması məqsədilə Xankəndi şəhərində yerləşən ali təhsil müəssisəsinin əsasında Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyində "Qarabağ Universiteti" publik hüquqi şəxs yaradılır. Təhsil ocağında ilk mərhələdə 24 ixtisas tədris olunacaq. Bunların arasında Turizm işinin təşkili və Turizm bələdçiliyi ixtisasları da yer alır

Tədqiqatın sonunda turizm sahəsi üzrə kadr hazırlığı sistemində üzə çıxarılmış problemlər əsasında gəldiyimiz əsas nəticə və təkliflər qismində göstərə bilərik:

1. Müəssisənin kadr potensialı cinsi və yaş, malik olduğu ixtisas səviyyəsi, bir müəssisədə iş fəaliyyətinin müddətinə görə, müəssisədə çalışan işçilərin peşəkar səriştələri (ixtisas potensialı), idrak qabiliyyəti (təhsil potensialı) və fiziki durumu əlamətlər əsasında birləşəm işçilərin ayrı-ayrı qruplarının məcmusundan ibarətdir. İşçinin əmək potensialı elmi nəzəri baximdan işçinin konkret şəraitdə istehsal fəaliyyətinin müəyyən nəticələrinin əldə olunması istiqamətində tətbiq edilən fiziki və mənəvi xüsusiyyətlərinin məcmu qabiliyyətini ifadə edir, digər tərəfdən isə, istehsalatda baş verən dəyişikliklər nəticəsində meydana gələn yeni məsələləri həll etmək bacarığını əks etdirir.

2. Turizm sferasında fəaliyyət göstərən mütəxəssislərə dair tələblərdən aydın olur ki, turizm xidmətləri sektorunda menecmentin

[8] "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı // Azərbaycan Respublikası Prezidentinin 16 noyabr 2022-ci il 3587 nömrəli Sərəncam ilə təsdiq edilmişdir. – Bakı, – 2022.

vahid konsepsiyası mövcud deyil. Turizm sahəsində idarəetmə əməyinin təşkili xüsusiyyətləri, rəhbər şəxsin səciyyəvi fərdi əlamətlərinin formalaşmasına dair müəyyən tələblər irəli sürür. Onlara aşağıdakılar aid edilə bilər: 1) Uyğunlaşdırıcı mobillik-fəaliyyətin yaradıcı formalarına meyllər, biliklərin dərinliyi, təşəbbüskarlıq, fəaliyyətin təşkili və məzmununda keyfiyyət dəyişikliklərinin arzusunda olmaq, yeniliklərə doğru təşəbbüslər və s.; 2) Kommunikativlik-ünsiyyətcil olmaq, kommunikasiya qabiliyyəti, insanlara maraq göstərmək, insanları özünə cəlb etmək, rəğbət qazanmaq bacarığı, münaqişəli vəziyyəti həll etmək qabiliyyəti; 3) Stresə davamlılıq-problemli vəziyyətlərdə intellektual və emosional müdafiə; 4) Dinamiklik, hökmranlıq, şöhrətpərəstlik, liderliyə can atma. Qeyd olunan tələblər turizm üzrə kadr hazırlığının prinsiplərini özündə əks etdirir.

3. Xarici ölkələrdə müşahidə olunan vəziyyətdən fərqli olaraq, Azərbaycan turizminin və millətlərarası ünsiyyətin bu sahə üzrə peşəkar-ixtisaslaşma strukturu dolğunluq və tamlıq vəziyyətindən hələlik uzaqdır. Bundan əlavə, hazırlıqlı mütəxəssislərin olmaması yerli turizm sektorunun aşağı sürətlə inkişaf etməsinin əsas səbəblərdən biridir. Çünki investisiyaların yatırılması üçün resurs zəmanətlərinin mövcudluğu kifayət etmir. Həm də, peşəkar-ixtisaslaşma zəmanətlərinin, xüsusən müvafiq kateqoriyalı mütəxəssislərin olması da zəruri amildir. Bu məsələnin həlli iqtiqamətində turizm fəaliyyəti üzrə tədris standartı (mübadilə və turizm fəaliyyətinin operativ idarəetmə sektoru) da önəmli rola malik olmalıdır.

4. Tədqiqat və faktlar göstərirki, Covid-19 pandemiyası və II Qarabağ müharibəsi dövrünü nəzərə almasaq, Azərbaycanda 2013-2022-ci illər arasında turizm üçün xarakterik sahələr üzrə göstəricilərdə əsasən artım müşahidə olunur. Bütün bunlar turizm sahəsinin ölkə iqtisadiyyatında, məşğulluq səviyyəsinin artırılmasında əhəmiyyətini nəzərə alaraq turizm sahəsinin inkişaf etdirilməsi ölkə rəhbərinin diqqət mərkəzində olmuşdur.

5. Turizm sahəsi üzrə kadr hazırlığına dair bu sahədə fəaliyyət göstərən strukturlarda aparılmış sorğular və emprik təhlillər əsasında peşəkar kadr çatışmazlığı problemi və onların aradan qaldırılması istiqamətləri müəyyən edilmişdir. Belə ki, şirkətlərdə çalışan işçi və

şəxslərin fikrincə əsas məsələ turizm sahəsi üzrə çalışanların əksəriyyətinin turizm ixtisası təhsilinin olmamasıdır.

6. Azərbaycanda turizm sahəsi üzrə kadr potensialı, turizm üzrə xarakterik sahələrdə yaradılmış əlavə dəyərin ölkənin ÜDM-də payı və respublikamıza turizm məqsədi ilə gələn turistlərin sayı haqqında məlumatların ekonometrik təhlili əsasında proqnoz modelləri qurulmuşdur. Qiymətləndirmə əsasında müəyyən edilmişdir ki, turizm sahəsində çalışan kadrların keyfiyyətinin artırılması üçün ölkəyə turizm məqsədi ilə gələnlərin sayının 1% artması 4 il sonra turizm ixtisası üzrə təhsil alan məzunlarının sayınının 2,33% artırılmasına imkan verir. Turizm sahəsində çalışan kadrların keyfiyyətinin artırılması məqsədi ilə turizm ixtisası üzrə məzunların sayının 1% artması 1 il sonra turizm üzrə xarakterik sahələrdə yaradılmış əlavə dəyərin ölkənin ÜDM-a verdiyi töhvəni 0,53% artırır.

7. Ölkə iqtisadiyyatının turizm sahəsində kadr potensialının artırılmasının prioritet istiqamətləri müəyyən edilmişdir. Təklif edilir ki, turizm tədris xidmətlərin marketinqi, işçi heyətinin marketinqi və s., sahə mütəxəssisləri üçün axşam təhsil formasının tətbiq edilməsi zəruridir. İşçi qüvvəsinin planlaşdırılması turizm üçün vacib elementdir. Yəni, milli, dövlət və regional işçi qüvvəsinin planlaşdırılması sahəvi və hüquqi baxımdan vahid sistemdən koordinasiya edilməlidir. Böyük şəhərlərdə və regionlarda turizm və qonaqpərvərlik sahəsində əmək fəaliyyəti və bacarıqlar arasında boşluq mövcuddur. Bunun üçün turizm sahəsində işçi qüvvəsi xəritəsinin olması tələb olunur. Ali məktəblərin maddi dəstəklənməsi. Turizm müəssisələrində istifadə olunan avadanlıqları, yaxud proqram təminatını ali məktəblərə verə bilərlər. Bu da təhsil müəssisələrinə tədris prosesində ən yeni avadanlıqlardan istifadə etməyə, tələbələrin ixtisası üzrə iş prosesində istifadə olunan texnologiya ilə həmin tələbələri tanış etməyə imkan yaradır. Qarşılıqlı fəaliyyətin belə bir forması turizm müəssisələr üçün turizm profilli ali məktəblərin məzunları arasında daim seçim aparmağa maraqlı ola bilər.

Yeni texnologiya resurslarına olduğu kimi, təlim resurslarına da investisiya qoyuluşu təşviq edilməlidir. Şirkətlərin təlim ehtiyaclarını ödəmək üçün qısa və orta müddətli şəkildə planlaşdırması vacib hesab edilir. Kadr hazırlığına sərmayə yatıran şirkətlər məhsulun və ya

xidmətin yeni əlavə dəyərini yaratmağa nail ola bilərlər. Şirkətlər işçilərin təlimi və təkmilləşdirilməsinə sərmayə yatırmaqla şirkətin rəqabət üstünlüyünün inkişafına kömək edə və intellektual kapitalını artıra bilər.

8. Azərbaycanda turizm sahəsi üzrə peşəkar kadr hazırlığı sisteminin fəaliyyətinin səmərəli mexanizmləri işlənib hazırlanmışdır. Belə ki, kadrların hazırlanması sisteminin təkmilləşdirilməsi üzrə tədbirlər kompleksinə aşağıdakılar daxil edilə bilər: kadrların hazırlanmasına məqsədli sifarişin formalaşdırılması; sahəvi məşğulluq xidmətinin yaradılması; turizm sahəsi üçün mütəxəssislərin ilkin hazırlığı və yenidən hazırlıq (təkmilləşdirmə) proqramlarını həyata keçirən müxtəlif tədris müəssisələrinin geniş şəbəkəsinin yaradılması; turizmlə məşğul olan müəssisələrdə və təşkilatlarda çalışan işçi heyətinin ixtisasartırma proqramlarında hər il iştirakı üçün lazımi şəraitin yaradılması. turizm sahəsi üçün kadrların hazırlanması isiqamətində müxtəlif müasir tədris texnologiyalarının işlənib hazırlanması və tətbiq edilməsi; əməyin yekun nəticəsinin turizm sahəsi üçün rəqabətqabiliyyətli mütəxəssisin hazırlanmasının qiymətləndirilməsi əsasında kadr hazırlığı sisteminin pedaqoji-təlim və idarəetmə heyətinin rolunun yüksəldilməsi və fəaliyyətinin stimullaşdırılması; praktiki məşğələlərin və istehsalat təcrübələrinin keçirilməsi məqsədilə tədris-istehsalat bazalarının yaradılması; məşğulluğun regional, sahəvi xidmətin köməyi ilə sahənin gənc mütəxəssislərinin işlə təmin olunmalarının təşkili; turizm sahəsində fəaliyyət göstərən müəssisələr və təşkilatlar tərəfindən tədris müəssisələrinin məzunları-gənc mütəxəssisləri haqqında rəylərin əldə olunmasının təşkili; sifarişli mövzular üzrə layihə və tədqiqat işlərinin yerinə yetirilməsi vasitəsilə kadrların hazırlanması gedişində praktiki bacarıqların əldə olunması prosesində müəssisələrin iştirakının təmin edilməsi və s.

**Tədqiqatın əsas məzmunu müəllifin çap edilmiş aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:**

1. İ.Ş.Əliyeva. Turizmdə təhsil və sənaye əməkdaşlığının effektivliyi. // – Bakı: “Azərbaycan Aqrar Elmi” elmi-nəzəri jurnal, 2017, № 1. – s. 146-150.

2. İ.Ş.Əliyeva. Turizm sahəsinin inkişafında təhsilin əhəmiyyəti. // – Bakı: “Turizm və qonaqpərvərlik tədqiqatları”, 2017, İl 6, Say 1. – s. 76-85.

3. İ.Ş.Əliyeva, A.N.Eminov. Təhsil sahəsinin investisiyalaşdırılmasında səmərəliliyin artırılması istiqamətləri. // – Bakı: “Azərbaycan Aqrar Elmi” elmi-nəzəri jurnal, 2017, № 2. – s. 11-18.

4. İ.Ş.Əliyeva, A.N.Eminov. Azərbaycanda turizm sahəsinin kadr planlaşdırılması və kadr ehtiyatının təhsil vəziyyəti. // – Bakı: “Turizm və qonaqpərvərlik tədqiqatları” 2017, İl 6, Say 2. – s. 48-59.

5. İ.Ş.Əliyeva. Azərbaycanda turizm kadr ehtiyyatının artırılmasında təhsil və sənaye əməkdaşlığının təşkili. // – Bakı: “Geostrategiya”, beynəlxalq ictimai-siyasi, elmi nəzəri jurnal, 2017, № 05 (41). – s. 59-62.

6. I.Sh.Aliyeva, A.N.Eminov. Education and employment cooperation assessment in Azerbaijan tourism industry. Стопанска Академия «Д.А.Ценов» Свищов, Годишник, 2017, ТОМ CXX, Vol 1. – s. 121-143.

7. I.Sh.Aliyev. Vocational education problems in tourism sphere of Azerbaijan. // – Kyiv, “Экономычний Высник Донбасу”, науковый журнал, 2017, № 4 (50). – s. 182-184.

8. I.Sh.Aliyeva, E.Suleymanov, A.Mirzayev, A.Eminov. The Dependence of Personnel Potential on Social Investment. The Case of the Tourism Sector. RePec: Expert Journal of Economics, 2018, Vol 6, Issue 2. – s. 56-60.

9. İ.Ş.Əliyeva, A.N.Eminov. A.Mirzəyev. Təhsilə sosial investisiyaların geri qaytarılma nisbətinin təhlili. // – Bakı: Azərbaycan Dövlət İqtisad Universitetinin elmi xəbərləri, 2018, İl: 6, Cild 6. – s. 94-103.

10. İ.Ş.Əliyeva, E.Qocayeva. Məşğulluq səviyyəsinin artırılmasında turizm sektorunun payının qiymətləndirilməsi. // – Bakı: “Audit”, jurnalı, 2018, №1. – s. 88-94.

11. İ.Ş.Əliyeva, A.N.Eminov. Turizm sahəsi üçün kadr hazırlığında beynəlxalq təcrübə. // – Bakı: Odlar Yurdu Universitetinin Elmi və Pedaqoji Xəbərləri, 2018. № 48. – s. 58-66.

12. İ.Ş.Əliyeva, A.N.Eminov. Ali təhsil müəssisələrində təhsilin keyfiyyəti təminatı. // – Bakı: “Turizm və Qonaqpərvərlik tədqiqatları”, 2018, İl 7, say 1. – s. 19-26

13. И.Ш.Алиева, Е.Годжаева. Современные тенденции в системе туризма. // – Кишинев: Выборочный сборник статей Международная обучающая конференция «Конкурентоспособность и инновации в зарубежной экономике». 28-29 сентября, – 2018. – s. 298-302.

14. İ.Ş.Əliyeva, A.N.Eminov, A.Mirzəyev Azərbaycanda təhsil sərmayələrinin effektivliyinin səmərəliliyinin qiymətləndirilməsi. // – Bakı: Bakı Mühəndislik Universiteti, İqtisadiyyatın davamlı inkişafı: problemlər və perspektivlər mövzusunda beynəlxalq elmi-praktiki konfrans, 26-27 Oktyabr, 2018. – s. 120-127.

15. İ.Ş.Əliyeva, A.Mirzəyev. Kadr hazırlığı məsələlərinin turizm sahəsinin rəqabətqabiliyyətliliyinin formalaşdırılması baxımından əhəmiyyəti. – Baku: IV International Scientific and Practical Conference, Tourism and Recreation in the XXI Century: Problems and Prospects, 3-4 may 2019, – s. 191-194.

16. И.Ш.Алиева. Анализ и оценка современного состояния туристической подготовки в Азербайджане Устойчивый туризм – перспективы и вызовы. – // София: Доклады от международной студенческо – докторской научной конференции, организованной кафедрой «Туризм», факультет «Экономики», Великотырновский университет «Св. Кирилла и Мефодия», 2020. 23 aprel 2020. – s. 126-133.

17. I.Sh.Aliyeva, A.N.Eminov, A.Mirzəyev, N.Hacıyev Econometric analysis of Dynamics of Personnel Training in Tourism Sphere. Turkish Journal of Computer and Mathematics Education, 2021, Vol. 12, № 6. – s. 1389-1396.



Dissertasiyanın müdafiəsi 14 fevral 2024-cü il tarixində saat $16^{00}$-da Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Kooperasiya Universiteti nəzdində fəaliyyət göstərən ED 2.46 Azərbaycan Kooperasiya Universiteti və Bakı Biznes Universitetinin birgə Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1106, Azərbaycan Respublikası, Bakı şəhəri, Nəcəf Nərimanov küçəsi, 93.

Dissertasiya ilə Azərbaycan Kooperasiya Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Kooperasiya Universitetinin rəsmi internet saytında (www.aku.edu.az) yerləşdirilmişdir.

Avtoreferat 13 yanvar 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 11.01.2024

Kağızın formatı: 60x84

Həcm: 41405 işarə

Tiraj: 100 ədəd